2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İradə Hacıyevanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 14 noyabr 2015-ci il tarixli 183 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 17 noyabr 2015-ci il

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə namizədliyi 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi üzrə özü tərəfindən irəli sürülmüş və qeydə alınmış İsmayılov İlyas Abbas oğlunun nümayəndəsi Rəhimov Mütəllim Qara oğlu 14 noyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək dairə seçki komissiyasının 7 noyabr 2015-ci il tarixli 24/78 saylı qərarını mübahisələndirmiş və həmin qərarın ləğv edilməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü İradə Hacıyeva həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinin və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma prosesində müraciət etmiş ərizəçi ilə əlaqə saxlanılmış, əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada, iclasda iştirak etmək hüquqlarının olması izah edilmişdir. O, müraciətinə əlavə etdiyi aktlardan və videogörüntülərdən başqa əlavə sənəd və materiala malik olmadığını bildirmişdir.

M.Q.Rəhimov müraciətini onunla əsaslandırmışdır ki, 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi üzrə keçirilmiş seçkilərdə Seçki Məcəlləsinin müvafiq maddələrinin tələbi pozulmuş, dairə seçki komissiyasına edilmiş müraciət komissiya tərəfindən düzgün araşdırılmamış, 24 saylı seçki məntəqəsində namizəd tərəfindən təyin edilmiş müşahidəçi R.O.Vəliyevin hüquqları pozulmuş, dairə seçki komissiyasının müvafiq qərarı komissiyanın üzvi və katibi tərəfindən imzalanmamışdır.

Şikayət ərizəsinə əlavə edilmiş, səsvermə günü bəzi seçki məntəqələrində qanun pozuntularının baş verməsi ehtimal edilən 50 ədəd akt araşdırılmışdır. Araşdırma prosesində həmin aktlardan 21-də pozuntunun hansı seçki məntəqəsində baş verməsi, 2 aktda pozuntunun baş verməsinin vaxtı (saatı) göstərilməmiş, əksər aktlar bir şəxs tərəfindən imzalanmış, aktların bəzilərində pozuntunun nədən ibarət olduğunu müəyyən etmək mümkün olmamış və həmin aktlar məntəqə seçki komissiyalarına təqdim edilməmişdir.

Araşdırma prosesində qeydə alınmış namizəd tərəfindən təyin edilmiş müşahidəçi R.O.Vəliyevin 24 saylı seçki məntəqəsindən qanunsuz olaraq uzaqlaşdırılması öz təsdiqini tapmamışdır. Belə ki, 24 saylı seçki məntəqəsində müşahidə aparmış müşahidəçilər N.Ə.Vəliyeva, Ş.V.Qasımova, A.M.Səfərov, R.Q.Qasımov, N.M.Şabanova, Ə.C.İsrafilov və digərləri, habelə həmin seçki məntəqəsi məntəqə seçki komissiyasının sədri G.P.Rəhimova, katibi D.Q.Qurbanov, üzvləri

O.A.Musayeva, M.M.Əliyeva, M.O.Əsgərova və digərlərinin izahatlarında belə bir halın baş verməməsi göstərilmişdir. Eyni zamanda 24 saylı seçki məntəqəsində saat 20.25-də tərtib edilmiş aktı R.O.Vəliyevin də imza etməsi bu halın baş verməməsini bir daha təsdiqləyir. Müəyyən edilmişdir ki, müşahidəçi R.O.Vəliyevin seçki məntəqəsində hüquqlarının pozulması ilə bağlı dairə seçki komissiyasına müraciəti daxil olmamışdır.

Müşahidəçilər V.R. Zeynalov, O.E.Vəliyev, X.İ.Nəsibov və Z.M.Yusibovun birlikdə təxminən eyni vaxtda ayrı-ayrı kəndlərdə, Cəfərli və Çaylı kəndlərində yerləşən 28 və 30 saylı seçki məntəqələrində pozuntuların olduğuna dair tərtib etdikləri aktlar inandırıcı olmadığından mötəbər sübut kimi qəbul edilə bilməz.

1 və 8 saylı seçki məntəqələrində ehtimal edilən qanun pozuntularının baş verdiyi barədə tərtib edilmiş aktları deputatlığa qeydə alınmış namizəd İ.A.İsmayılovun vəkil təyin etdiyi şəxs A.V.Əfəndiyev və müşahidəçi M.H.Məmmədov, həmçinin sözügedən məntəqə seçki komissiyalarında Ədalət Partiyasını təmsil edən həlledici səs hüquqlu üzvlər Y.M.Kərimov və Ş.Z.Cəfərov imzalamışlar. Adıçəkilən komissiya üzvləri səsvermə günü səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyaları protokollarının tərtib edilməsində iştirak etmiş və həmin protokolu imzalamışlar.

Araşdırma ilə müəyyən edilmişdir ki, M.Q.Rəhimov iddia edilən qanun pozuntuları ilə bağlı dairə seçki komissiyasına müraciət etmiş, komissiya həmin müraciətə müəyyən edilmiş müddətdə və qaydada baxmış, müraciətdə göstərilən hallar ətraflı araşdırılmış və əsaslandırılmış qərar qəbul etmişdir. Dairə seçki komissiyasının həmin qərarının komissiyanın katibi və bir üzvü tərəfindən imzalanmamasına gəldikdə isə komissiyanın 7 noyabr 2015-ci il tarixli iclas protokolundan müəyyən edilir ki, komissiyanın katibi G.M.Ağazadə və üzvü T.M.Muradov üzürlü səbəbdən iclasda iştirak etməmişlər, ona görə də müvafiq qərar onlar tərəfindən imzalanmamışdır.

Seçki Məcəlləsinin 19.10-cu maddəsinin tələbinə əsasən seçki komissiyasının iclası komissiyanın həlledici səs hüquqlu üzvlərinin 2/3 hissəsi iştirak etdikdə səlahiyyətli hesab edilir. Həmin Məcəllənin 19.14-cü maddəsində seçki komissiyası qərarlarının və iclas protokollarının komissiyanın sədri və katibləri tərəfindən imzalanmalı olduğu göstərilir. Adları çəkilən şəxslər qərar və protokolu imzalamadıqda, onları bu sənədlərə səs verən komissiya üzvləri imzalayırlar.

Şikayətə əlavə edilmiş bir ədəd CD diskdə olan görüntülər müşahidə aparılması prinsipinin pozulması ilə əldə edildiyindən sübut kimi qəbul edilə bilməz. Belə ki, Seçki Məcəlləsinin 41.1.3-cü maddəsinə əsasən, müşahidə açıq aparılmalıdır və həmin Məcəllənin 42.2.8-ci maddəsinə əsasən, müşahidəçinin səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə və ya onu əvəz edən şəxsə müraciət etmək hüququ vardır. Müraciətdə göstərilən halda isə şikayətçi müşahidəçilərin seçki qanunvericiliyinin yuxarıda qeyd edilən tələblərinə riayət etməmələrini nəzərə almamışdır.

Beləliklə, 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsinin dislokasiyasında olan bir sıra seçki məntəqələrində baş verməsi ehtimal edilən qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, həmçinin səsvermənin keçirilməsi və səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı həmin seçki dairəsi üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları müəyyən edilmədiyindən deputatlığa qeydə alınmış namizəd İ.A.İsmayılovun nümayəndəsi M.Q.Rəhimovun müraciəti əsassız hesab edilərək təmin edilməməli, dairə seçki komissiyasının 7 noyabr 2015-ci il tarixli 24/78 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə qeydə alınmış namizəd İsmayılov İlyas Abbas oğlunun nümayəndəsi Rəhimov Mütəllim Qara oğlunun 14 noyabr 2015-ci il tarixli 183 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi dairə seçki komissiyasının 7 noyabr 2015-ci il tarixli 24/78 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Iradə Hacıyeva